*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 71-78*

https://doi.org/10.62837/2026.1.71

**GÜLXANI (Pənah) VAQİF qızı ŞÜKÜROVA**
Filologiya üzrə elmlər doktoru. dosent
Azərbaycan Memarlıq və İnşaat Universiteti,
Azərbaycan dili və pedaqogika kafedrasının müəllimi
Email: www.gulxani@outlook.com.
ORCID: https://orcid.org/0000-0002-7766-7247.

# AZƏRBAYCAN DİLİNİN TARİXİ
## (təhlillər, tədqiqatlar)
(1-ci hissə)

**XÜLASƏ**

"Azərbaycan dilinin tarixi" (təhlillər, tədqiqatlar) adlı məqalədə Müasir Azərbaycan dili, ədəbi dil tarixi, türkologiya və ümumi dilçilik üzrə görkəmli alim-mütəxəssis Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, filologiya üzrə elmlər doktoru, akademik Nizami Cəfərovun təhlil və tədqiqatları araşdırılır, gəldiyi qənaətlər, dil tariximiz, Azərbaycan dilinin, dilçiliyinin metodoloji məsələləri ilə bağlı dəyərli fikirləri tədqiqata cəlb edilir. Azərbaycan xalqının, türk dünyasının zəngin mənəvi zənginliyi, mənsub olduğu xalqın dilinin incəlikləri, Azərbaycan dil tarixi, onun metodoloji problemləri, Azərbaycan türkcəsinin təşəkkülü tarixi, Azərbaycan dilində cümlənin struktur-semantik təkamülü, eposlarımızdan "Kitabi-Dədə Qorqud"un dili, XVII-XVIII əsrlər Azərbaycan ədəbi dili, klassik sənətkarlarımızdan Füzulinin dili, Azərbaycan türkcəsinin milliləşməsi tarixi, şimali və cənubi Azərbaycan ədəbi dili kimi məsələlərə dair böyük elmi araşdırmalar diqqətə çəkilir.

Azərbaycan xalqının, türk dünyasının zəngin mənəvi zənginliyi, mənsub olduğu xalqın dilinin incəliklərinə nüfuz etmə qabiliyyəti, dil tariximiz, Azərbaycan dilinin, dilçiliyinin metodoloji məsələləri, dilçiliyimizin mühüm problemləri, Azərbaycan dili tarixi, azərbaycanşünaslığın əsasları, dil tariximizin, Azərbaycan ədəbiyyatının keçdiyi yol, türk xalqlarının qədim tarixi, ədəbiyyatı tarixi və müasir ədəbi proseslə bağlı problemlər araşdırılır. Azərbaycan dili tarixinin müstəqil bir elm sahəsi kimi inkişafı, türk dilinin ləhcələrindən olan Azərbaycan dilinin etnik mənşəyi, türk dillərinin müştərək dövrləri, xüsusiyyətləri, türk dillərinin diferensiasiyası ilə bağlı aparılan tədqiqatlar araşdırılır.

**Açar sözlər:** azərbaycan, dil, tarix, türk dili.

**Giriş.**

Azərbaycan dilçilik elminin, ədəbiyyatşünaslıq elminin, türkologiya elminin inkişafına böyük töhfələr verən, beynəlxalq və dünya miqyasında tanınan, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, filologi-

ya üzrə elmlər doktoru, akademik Nizami Cəfərov elm, ədəbiyyat, ictimai-siyasi mühitdə tanınan nüfuzlu ziyalımızdır. Qələmindən çıxan bütün əsərlərində Azərbaycan xalqının, türk dünyasının zəngin mənəvi zənginliyi, mənsub olduğu xalqın dilinin incəliklərinə nüfuz etmə qabiliyyəti olan, dil tariximiz, Azərbaycan dilinin, dilçiliyinin metodoloji məsələlərinin araşdırılmasında mühüm rolu olan alim, pedaqoq və ictimai-siyasi xadimdir. Onun elmi fəaliyyətində dilçiliyimizin mühüm problemləri, Azərbaycan dili tarixi, azərbaycanşünaslığın əsasları, dil tariximizin, Azərbaycan ədəbiyyatının keçdiyi yol, türk xalqlarının qədim tarixi, ədəbiyyatı tarixi və müasir ədəbi proseslə bağlı problemləri əsas yer tutur.

Nizami Cəfərovun böyük xidmətlərindən biri də onun Azərbaycan dil tarixi, onun metodoloji problemləri, Azərbaycan türkcəsinin təşəkkülü tarixi, Azərbaycan dilində cümlənin struktur-semantik təkamülü, eposlarımızdan "Kitabi-Dədə Qorqud"un dili, klassik sənətkarlarımızdan Füzulinin dili, Azərbaycan türkcəsinin milliləşməsi tarixi, şimali və cənubi Azərbaycan ədəbi dili kimi məsələlərə dair apardığı araşdırmalar, gəldiyi qənaətlər, bu sahədə elmimizin inkişafına verdiyi töhfələrdir.

**Azərbaycan dilinin tarixinə ümumi baxış.**

Azərbaycan dil tarixinə dair Nizami Cəfərovun (1), eləcə də Nizami Xudiyevin (2), Elməddin Əlibəyzadənin (3), Əzizxan Tanrıverdinin (4), Tofiq Hacıyevin (5) dəyərli tədqiqat əsərləri vardır. Eyni zamanda IV cildlik "Azərbaycan ədəbi dili tarixi" (6) və s. kitablar da bu cəhətdən dəyərlidir.

Ana dilimiz olan Azərbaycan dilnin zəngin tarixinin olduğunu vurğulayan alim Azərbaycan dilinin təşəkkülü məsələsinin bir problem kimi "XIX əsrin əvvəllərində – milli özünüdərk dövründə bütün aydınlığı ilə" qoyulduğunu, kifayət qədər obyektiv, metodoloji baxımdan düzgün həllini ilk dəfə həmin dövrdə tapdığını yazır. XIX əsrin sonu, XX əsrin əvvəllərində elmi-ictimai təfəkkürdə formalaşmış Azərbaycan dilinin öz mənşəyi etibarilə türk dillərindən biri olması fikrinin ilk növbədə aşağıdakı səbəblərdən irəli gəldiyini yazır. Bunlar aşağıdakılardır:

"a) türk dillərinin diferensiasiyası lazımi səviyyədə deyildi, ona görə də XIX əsrin sonu, XX əsrin əvvəllərinə qədər türk dilləri nəinki "xaric"dən, hətta "daxil"dən də bütöv dil kimi təsəvvür edilirdi;

b) XIX əsrin sonu, XX əsrin əvvəllərində türk dünyasında türkçülük, yaxud ümumtürk millətçiliyi ideyalarının təşəkkül tapıb yayılması ümumən türklərdən, bütövlükdə türk dilindən danışmağa daha çox əsas verirdi;

c) Azərbaycanda (və onunla həmhüdud regionlarda) yaşayan qeyri-türk mənşəli etnoslar hələ tarixə siyasi-ideoloji iddialarla müdaxilə etmirdilər" (1.2).

XX əsrin 20-ci, 30-cu illərində də Azərbaycan dilinin (və xalqının) mənşəyinə həmin münasibətin inkişaf etdiyini, onun elmi-ideoloji imkanlarını genişlən-

dirdiyini, "sovet türkologiyası"nın Azərbaycan xalqının türk mənşəli bir xalq olduğunu israrla etiraf etdiyini qeyd edir.

30-cu illərin sonlarından başlayaraq Azərbaycan dilinin (və xalqının) mənşəyi məsələsinə münasibətin prinsipial şəkildə dəyişməsinin müşahidə olunduğu açıqlanır: "tədricən belə bir fikir geniş yayılır ki, Azərbaycan xalqının genetik əsasını hansısa (!) qeyri-türk mənşəli bir (yaxud bir neçə) etnos təşkil edir, türklər Azərbaycanı istila edənə, yəni XI-XIII əsrlərə qədər həmin regionda artıq formalaşmış bir xalq (təbii ki, qeyri-türk mənşəli, qeyri-türkcə danışan) mövcud idi; "yerli əhali", "aborigen"lər türklərlə müqayisədə daha mədəni olduqları üçün "gəlmə"ləri etnik-mədəni baxımdan "həzm" edib, yalnız onların (türklərin) dillərini saxladılar...Və beləliklə, 30-cu illərdən başlayaraq Azərbaycan tarixinin qədim dövrü barədə hər cür miflər uydurulurdu ki, həmin miflərin əsas ideoloji məqsədi Azərbaycanı türk dünyasından ayırmaqdan ibarət idi. Heç şübhəsiz, Azərbaycan tarixinin qədim dövrünün mürəkkəb etnolinqvistik mənzərəsi, haqqında söhbət gedən miflərin müəyyən elmi əsaslara malik olmasına, elmi-ictimai təfəkkürdə geniş intişar tapmasına imkan verir, şərait yaradırdı" (1.2).

Azərbaycan dili tarixinin müstəqil bir elm sahəsi kimi XX əsrin 30-cu illərindən formalaşdığı, bu illərdə professor Ə.Dəmirçizadənin böyük zəhməti sayəsində "Azərbaycan dili tarixi" yaradıldığı, onun 30-cu illərdən etibarən çap etdirdiyi kitabların "Azərbaycan dili tarixi"nin əsaslarını müəyyən etməklə yanaşı, bu sahədə mövcud olan problemləri də bütün mürəkkəbliyi ilə qarşıya qoyduğunu qeyd edir.

60-cı illərin sonu 70-ci illərin əvvəllərindən başlayaraq "Azərbaycan dili tarixi" sahəsində yetişən alimlər, mütəxəssislər artır, bu sahədə ixtisaslaşma getdiyi, bu cür ixtisaslaşmanın əhəmiyyətini (dil tarixinin müxtəlif məsələləri, aspektləri, tendensiyaları və s. ayrıca olaraq araşdırılmağa başladı), bununla belə, Azərbaycan dili tarixinin bütövlükdə təsəvvür edilməsinin çətinləşdiyini, nəticədə ümumi (üzvi) bir "Tarix» yaratmaq əvəzinə, ayrı-ayrı dövrlərin müxtəlif metodlarla işlənmiş "Tarix"lərini mexaniki olaraq birləşdirmək meylinin meydana çıxdığını açıqlayır.

30-50-ci illərdən fərqli olaraq 60-90-cı illərdə "Azərbaycan dili tarixi" sahəsində hər hansı əsaslı metodoloji dəyişikliyi görmür. Müşahidə olunan bir neçə dəyişikliyi diqqətə çəkir:

"I mərhələdə (30-50-ci illərdə, yaxud Ə.Dəmirçizadə mərhələsində) Azərbaycan dili tarixi ümumtürkoloji kontekstdən – türk dilləri tarixindən təcrid olunmuş bir şəkildə araşdırılırdı. II mərhələdə (60-90-cı illərdə) həmin sahəyə özünəməxsus bir türkçülük emosiyası gəldi... Bu emosiya özünü xüsusilə aşağıdakı formalarda göstərdi:

a) Azərbaycan dili tarixini «qədimləşdirmək», eramızdan əvvəlki əsrlərdə, hətta minilliklərdə Azərbaycanda türk etnosunun mövcud olması üzərində israr etmək;

b) Azərbaycan ərazisində mövcud olmuş qədim etnosların (lullubilər, qutilər, mannalılar, midiyalılar, atropatenalılar, albanlar və s.) türk mənşəli olduqlarını "sübut etmək";

c) "türk" etnonimini yeri gəldi-gəlmədi işlətmək və s» (1.2). Lakin həmin "türkçülük emosiyası" ilə yazılmış Azərbaycan dili tarixlərində müəlliflərin Azərbaycanın hüdudlarından kənara çıxmadığını, "türkçülüy"ü ancaq Azərbaycan hüdudunda axtardıqlarını, bu da "nəticə etibarilə, gedişi gözəl mülahizələrin meydana çıxmasına" səbəb olduğunu vurğulamaqla yanaşı, eyni zamanda "ədəbi dil tarixi" kitablarında əks olunmuş türkçülük emosiyası"nın Azərbaycan dili tarixinin materialından, həmin materialın tədqiqi metodologiyasından irəli gəlmədiyini, 60-cı illərin sonu, 70-ci illərdən etibarən ümumən Azərbaycan ictimai-mədəni təfəkküründə getdikcə daha geniş yayılan "özünə qayıdış" düşüncələrinin nəticəsi olduğunu yazır.

"Beləliklə, həm "ədəbi dil tarixi", həm də "tarixi qrammatika" (ümumən "Azərbaycan dili tarixi") sahəsində görülmüş işlərin hansının uğurlu, hansının qüsurlu olduğu barədə düşünməyə ehtiyac duyulur" – deyən Akademik Nizami Cəfərov uğurlu işlərin birincisinin, indiyə qədərki "Tarix"lərin türk mənşəli Azərbaycan dilinin (Azərbaycan türkcəsinin) müstəqilliyini zəngin dil faktları ilə elmi şəkildə təsdiq etməsindən ibarət olduğunu yazır. İkincisinin Azərbaycan dilinin müxtəlif tarixi təzahür formaları (ədəbi dil, yaxud yazı dili; ümumxalq, yaxud xalq danışıq – folklor dili; dialekt, yaxud tayfa dili və s.) barədə sistemli olmasa da, müəyyən təsəvvür yaratdığını, ayrı-ayrı böyük söz ustalarının, yazılı mənbələrin dil-üslub xüsusiyyətlərinin tədqiq edildiyini, ayrı-ayrı qrammatik kateqoriyaların tarixinin müxtəlif türk dilləri ilə müqayisədə araşdırıldığını və s. göstərir.

30-cu illərdən etibarən "Azərbaycan dili tarixi" sahəsində aparılmış tədqiqatların çox mühüm elmi-metodoloji qüsurlarının da mövcudluğunu göstərir.

"Birinci olaraq Azərbaycan dilinin türk dillərindən biri olmasının prinsip etibarilə etirafı, lakin faktiki olaraq, türk dillərinin müştərək dövrlərindən, xüsusiyyətlərindən imtina edilməsi nəticəsində meydana çıxan qüsurlar (1. Azərbaycan dilinin (Azərbaycan türkcəsinin) mənşəyindən bəhs olunarkən yalnız Azərbaycan ərazisindəki tarixi türklük potensiyasından çıxış edilməsi və Azərbaycanın türk dünyasından ayrılması; 2. Qədim (ümum-) türk dövrünün müştərək tarixindən ümumiyyətlə qaçılması, orta əsrlərin (xüsusilə XV-XVI əsrlər) müştərək dil mənbələrinə, hadisələrinə isə birtərəfli şəkildə yiyə durulması (yəni onların müştərəkliyinin qəbul edilməməsi); 3. XVI-XVII əsrlərdən sonra Azərbaycanda

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 71-78*

gedən dil proseslərinin yalnız Azərbaycandaxili proseslər kimi şərh olunması və s.) olduğunu açıqlayır.

II olaraq Azərbaycan dili tarixi dövrləşdirilərkən etnodil proseslərindən daha çox ictimai-siyasi, mədəni-ədəbi hadisələrin gedişindən çıxış edildiyi, Azərbaycanda qədim dövrlərdən etibarən özünü göstərən (və dil proseslərini yaradıb istiqamətləndirən) etnik proseslərin diqqətdən kənarda qaldığı ("Halbuki eramızın I minilliyinin ortalarına qədər hun-qıpçaq türkləri, II minilliyin əvvəllərinə qədər oğuz türkləri (bu cür ümumi şəkildə), ondan sonra isə müxtəlif türk (əsasən, oğuz) tayfaları Azərbaycandakı fəaliyyətləri ilə (Azərbaycan milləti təşəkkül tapana qədər) mürəkkəb etnodil mənzərəsi yaratmışlar. Eyni zamanda həmin proseslərdə qeyri- türk etnosları da iştirak etmişlər ki, mövcud "Tarix"lər bu barədə də susur..." – N.C), nəticədə formalaşan "yanlış təsəvvür"ü (Azərbaycan xalqı (və Azərbaycan türkcəsi) müstəqil bir xalq (və dil) olaraq VII-IX, yaxud IX-XI, yaxud da XI-XII əsrlərdə formalaşdığından bundan sonrakı etnik proseslər (türk etnoslarının axını, məsələn, XIII-XIVəsrlərdə) müxtəlif səbəblər üzündən Türküstandan Azərbaycana xarici müdaxilədən başqa bir şey deyildir), araşdırmaların isə israrla sübut etdiyi məsələni (etnodil prosesləri Azərbaycanda (ümumən türk dünyasında) XVII əsrə qədər intensiv olmuşdur) qabardır.

Üçüncü olaraq dil proseslərinin (ümumtürkoloji proseslər; Azərbaycandaxili ədəbi dil, yaxud yazı dili prosesləri; ümumxalq dili, yaxud xalq danışıq dili–folklor dili prosesləri; dialekt, yaxud tayfa dili prosesləri və s.) müxtəlif inkişaf dövrlərində, mərhələlərində üzvü vəhdətdə götürülməsi əvəzinə "sərbəst" hərəkət edilməsi... Və dil tarixini ədəbi dil, yaxud yazı dili tarixi, funksional-üslublar tarixi, hətta, demək olar ki, bədii üslubun tarixi səviyyəsinə endirməklə onun bəsitləşdirilməsi, mürəkkəb dil, nitq, üslub proseslərinin qarşılıqlı-əlaqəli şərhindən bu və ya digər şəkildə qaçılması...") olduğu göstərilir.

Həmin qüsurların «aradan qaldırılmayınca mükəmməl, elmi-metodoloji baxımdan əsaslandırılmış bir "Azərbaycan dili tarixi" yaratmaq mümkün olmadığını bildirən Nizami Cəfərov "bunun üçünsə Azərbaycan dilinin tarixi ümumtürkoloji kontekstdə, etnodil proseslərinin gedişi diqqət mərkəzində dayanmaqla və müxtəlif dil, nitq, üslub təzahürləri üzvi vəhdət halında araşdırılmalıdır" - deyir. Belə bir geniş miqyaslı, kompleks araşdırmanın meydana çıxması ilə "Azərbaycan dili tarixi"nin tədqiqi sahəsində, alimin fikrincə, "yeni III mərhələ başlanır. Həmin mərhələnin ümumi metodoloji prinsipi araşdırmalarda diferensiasiyanı dərinləşdirməklə ("dil tarixi»nin müxtəlif sahələrini ayrılıqda tədqiq edib öyrənməklə) yanaşı inteqrasiyanı gücləndirməkdən (ümumən Azərbaycan dilinin tarixi barədə bütöv təsəvvür yaratmağa çalışmaqdan) ibarətdir" (1.3).

"Azərbaycan dili tarixi"nin (birinci növbədə "Azərbaycan ədəbi dili tarixi") sovet ideologiyasının inkişafda olduğu illərdə formalaşması, "Türk dillərini (və xalqlarını) bir-birindən təcrid etmək, hər bir türk dili (və xalqı) üçün "özün-

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 71-78*

əməxsus" genezis axtarıb "tapmaq", yaxud uydurmaq fəlsəfəsi burada da öz həlledici metodoloji təsirini" göstərdiyi, ona görə də, heç bir "tarix"də Azərbaycan dilinin etnik mənşəyinin Azərbaycandan kənarda axtarılmadığı, ümumtürk (müştərək) dövrlər, mərhələlərin bütünlüklə inkar edildiyi, Sovet "təcridetmə" ideologiyasının həmin qeyri-elmi mövqeyini "yerli mütəxəssislər"in yerli mühitdə məhz milli müstəqillik metodologiyası kimi təbliğ etdiyini, "beləliklə, paradoksal bir vəziyyət" əmələ gəldiyini açıqlayır: "Azərbaycan dili "Tarix"lərində "yerli" türkçülük ümumi (həqiqi!) türkçülüyə qarşı qoyulmuşdur. Məsələnin başqa bir mürəkkəbliyi isə ondan ibarətdir ki, sovet xüsusi türkologiyası (yəni bu və ya digər türk dili, yaxud ədəbiyyatı ilə məşğul olan türkologiya ) bu və ya digər türk dilinin, yaxud ədəbiyyatının I minilliyin sonu, II minilliyin əvvəllərində təşəkkül tapdığını "sübut" etmək olduğu halda, sovet ümumi türkologiyası (görünür, birinci növbədə həmin sahə ilə məşğul olan tədqiqatçıların görüş dairəsinin, ümumtürkoloji məlumatlarının genişliyinə görə) türk dillərinin diferensiasiyasını sonrakı əsrlərə (XV- XVII əsrlərə) aid edirlər" (1.4).

**NƏTİCƏ.**

Sovet ideologiyasının süqutu isə türk dilləri tarixi sahəsindəki həmin metodoloji qüsurların aradan qaldırılması üçün əlverişli şərait yaransa da, "lakin, heç şübhəsiz, ideologiya maneəsinin aradan qalxması hələ uğurlu araşdırmaların aparılması, alınmış nəticələrin ümumiləşdirilməsi və nəticə etibarilə mükəmməl bir "Azərbaycan dili tarixi"nin yaradılması üçün həlledici şərt deyil, eyni zamanda haqqında söhbət gedən "müsbət şərait"dən istifadə edərək və milli müstəqillik ideologiyasına əsaslanaraq, heç olmasa mövcud tədqiqat təcrübəsi hüdudunda, düzgün metodoloji prinsiplərə dayanmaq lazım gəlir" – deyir. Həmin prinsiplər, Akademik Nizami Cəfərovun fikrincə, əsasən aşağıdakılardan ibarətdir:

1. Azərbaycan dilinin yalnız təşəkkül tarixini deyil, bütün tarixini ümumtürkoloji kontekstdə araşdırmaq, bu və ya digər dövr ilə məhdudlaşmamaq, hər hansı mərhələdə nə həcmdə tələb olunsa, o həcmdə ümumtürk miqyasına çıxmaq;

2. Azərbaycanda gedən etnik proseslərin tarixini təhlil edib, dil hadisələrinin etnik səbəblərini müəyyənləşdirmək – xüsusilə böyük etnosların Azərbaycandakı və həmhüdud regionlardakı hərəkətinin mənzərəsini hər hansı tarixi dövrdə mümkün qədər mükəmməl təsəvvür etmək, türk tayfa dillərinin – dialektlərinin ümumxalq Azərbaycan dilinin formalaşmasına bu və ya digər mərhələdəki "təzyiq"inin miqyasını, keyfiyyətini aydınlaşdırmaq, Azərbaycandan kənarda qalmış Azərbaycan türkcəsinin etnolinqvistik hüdudlarını müəyyən etmək;

3. Dilin müxtəlif təzahür formalarını (tayfa dilləri – dialektlərdən tutmuş ədəbi dilə, yazılı mənbələrin dilinə qədər) tarixi struktur–funksional əlaqə, qarşılıqlı təsir halında araşdırmaq, "Azərbaycan dili" ("Azərbaycan türkcəsi") anlayışının istənilən dövrdəki, yaxud mərhələdəki tarixi məzmununu aydın təsəvvür etmək" (1.5).

Azərbaycan dilinin tarixinin bölündüyü dövrləri (1.Təşəkkül dövrü (I minilliyin əvvəllərindən II minilliyin ortalarına qədər); 2.Milli əsaslar üzərində yenidən təşəkkül dövrü (XVII-XIX əsrlər); 3.Müasir dövr (XX əsrin əvvəllərindən sonra) açıqlayır.

**Ədəbiyyat**

1. Akademik Nizami Cəfərov. Seçilmiş əsərləri. I cild (5 cilddə). Bakı. "Elm", 2007. s.2.
2. Nizami Xudiyev. Azərbaycan ədəbi dili tarixi. Ali məktəblər üçün dərslik. Bakı, "Elm və təhsil", 2012.
3. Elməddin Əlibəyzadə. Azərbaycan dilinin tarixi. İki cilddə (I cild). Azərbaycan Tərcümə Mərkəzi, Bakı, 2007.
4. ƏzizxanTanrıverdi. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı. "Elm və təhsil". 2017.
5. Tofiq Hacıyev. Azərbaycan ədəbi dilinin tarixi. II hissə. Bakı. Elm. 2012
6. Azərbaycan ədəbi dili tarixi. 4 cilddə. I cild. Bakı, "Şərq-Qərb", 2007.

**GULXANI SHUKUROVA**

**HISTORY OF THE AZERBAIJAN LANGUAGE**
**(analyses, research)**
**Summary**
**(Part 1)**

In the article titled "A general overview of the history of the Azerbaijani language" (analyses, researches), the analyses and researches of the outstanding scientist-specialist in the modern Azerbaijani language, literary language history, Turkology and general linguistics, full member of the Azerbaijan Academy of Sciences, honored scientist, doctor of sciences in philology, academician Nizami Jafarov are examined, the conclusions he reached, the history of our language, his valuable ideas on methodological issues of the Azerbaijani language and linguistics are involved in the research. The rich spiritual wealth of the Azerbaijani people and the Turkic world, the subtleties of the language of the people to which they belong, the history of the Azerbaijani language, its methodological problems, the history of the formation of Azerbaijani Turkish, the structural-semantic evolution of the sentence in the Azerbaijani language, the language of our epics "Kitabi-Dade Gorgud", the language of our classical artists Fuzuli, the Azerbaijani literary language of the 17th-18th centuries, the history of the nationalization of Azerbaijani Turkish, and the literary languages of northern and southern Azerbaijan are highlighted.

The rich spiritual wealth of the Azerbaijani people, the Turkic world, the ability to penetrate into the subtleties of the language of the people to whom it belongs, our language history, methodological issues of the Azerbaijani language,

linguistics, important problems of linguistics, the history of the Azerbaijani language, the foundations of Azerbaijani studies, the path of our language history, Azerbaijani literature, the ancient The development of the history of the Azerbaijani language as an independent branch of Science, the ethnic origin of the Azerbaijani language, which is one of the dialects of the Turkic language, the joint periods of Turkic languages, their features, the studies on the differentiation of Turkic languages are investigated.

**Key words:** Azerbaijan, People, language, Turkic, epics

## ИСТОРИЯ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА
## (анализ, исследования)
## Резюме
## (Часть 1)

В статье под названием “Общий обзор истории азербайджанского языка” (анализы, исследования) представлены анализы и изыскания выдающегося ученого-специалиста по современному азербайджанскому языку, истории литературного языка, тюркологии и общему языкознанию, действительного члена Академии наук Азербайджана, заслуженного деятеля науки, доктора Рассматриваются кандидат филологических наук, академик Низами Джафаров, сделанные им выводы, история нашего языка, его ценные идеи по методологическим вопросам азербайджанского языка и лингвистики. Богатое духовное богатство азербайджанского народа и тюркского мира, тонкости языка народа, к которому он принадлежит, история азербайджанского языка, его методологические проблемы, история формирования азербайджанского турецкого языка, структурно-семантическая эволюция предложения в азербайджанском языке, история развития азербайджанского языка в целом. язык наших эпосов “Китаби-даде Горгуд”, язык наших классиков Физули, азербайджанский литературный язык XVII-XVIII веков, история национализации азербайджанского турецкого языка., а также выделены литературные языки северного и южного Азербайджана. Богатое духовное богатство азербайджанского народа, тюркский мир, умение вникать в тонкости языка народа, к которому он принадлежит, историю нашего языка, методологические вопросы азербайджанского языка, лингвистику, важные проблемы языкознания, историю азербайджанского языка, основы азербайджанского языка в целом. исследования, путь истории нашего языка, азербайджанская литература, древнее развитие истории азербайджанского языка как самостоятельной отрасли науки, этническое происхождение азербайджанского языка, который является одним из диалектов тюркского языка, исследуются совместные периоды тюркских языков, их особенности, исследования по дифференциации тюркских языков.

**Ключевые слова:** Азербайджан, народа, язык, тюркских, эпос.

**Rəyçi: Elmlər doktoru, prof.Yeganə İsmayılova**